**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№343/6** **14 aprel 2022-ci il**

# "Auditor xidməti sahəsində haqsız rəqabət və reklam qadağası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2022-ci il 25 fevral tarixli 1/12 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Auditor fəaliyyəti sahəsində haqsız rəqabət hallarının qarşısının alınmasına dair Tədbirlər Planı"nın 1-ci "Auditor fəaliyyəti ilə əlaqədar haqsız rəqabət və reklam qadağası haqqında Əsasnamənin hazırlanması" bəndinə müvafiq olaraq Palatanın Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov) və Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin Haqsız rəqabətə qarşı mübarizə şöbəsi (R.Cəfərli) tərəfindən hazırlanmış "Auditor xidməti sahəsində haqsız rəqabət və reklam qadağası haqqında Əsasnamə"nin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor xidməti sahəsində haqsız rəqabət və reklam qadağası haqqında Əsasnamə" Şura üzvlərinin irad və təklifləri nəzərə alınmaqla təsdiq edilsin (əlavə olunur).
2. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, təsdiq edilmiş Əsasnamənin Palatanın üzvləri olan auditor təşkilatları və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
3. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin Haqsız rəqabətə qarşı mübarizə şöbəsinə (R.Cəfərli) və Haqsız rəqabətə qarşı mübarizə üzrə komitəyə (Q.Əhmədov) tapşırılsın ki, təsdiq edilmiş Əsasnamənin müddəalarından irəli gələn vəzifələrin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər.
4. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, auditor xidməti göstərərkən təsdiq edilmiş Əsasnamənin tələblərinə əməl etsinlər və öz fəaliyyətlərində haqsız rəqabət hallarına yol verməsinlər.
5. Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, "Auditor xidməti sahəsində haqsız rəqabət və reklam qadağası haqqında Əsasnamə"nin auditorların ixtisasartırma kurslarının tədris proqramına daxil edilməsi təmin edilsin.
6. Bu qərarın və Əsasnamənin mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**